*Salam. Mən gənc şairəm. Şeirlərimi Vüqar Əhməd oxudu, bəyəndi və bildirdi ki, şeirləri seçərək bu müraciəti ünvanlayım baş redaktor Mirzə Əlirza Xələfliyə. 2020-ci ildən ədəbiyyat sahəsindəyəm. Şeirlərim "Azad qələm", "Ədəbi ovqat" jurnallarında, "Yeni uğur" poeziya antologiyasında, "Kulis.az", "Müstəqil.az", "Yeniyaz.az", "Sim-sim.az" ədəbiyyat portallarında yayımlanıb.*
*Hörmətlə:*

*Məhəmməd SAMİR*

# DANIŞMAĞA DİLİMİ VER

### NÖQTƏ

Nə ruhuna ruhum çatır, nə əlim əllərinə,
Gözlərinin dəryası da selimdən gəlmir mənim.
Biz özümüz yıxdıq bizi, bacarırsan, bağışla,
Daha səni bağışlamaq könlümdən gəlmir mənim.

Tale yazı pozan imiş, yazı yazan deyilmiş,
Sevgimiz hər yıxılanda ömür bizi əyirmiş.
Təqvimlərə məhkum olmaq elə asan deyilmiş,
Sənsiz günlərə ayım da, ilim də gəlmir mənim.

Mən taqətsiz yol yorğunu, sən vüqar dağındasan,
Mənim ömrüm ağ-qaradı, niyə sən ağımdasan?!
Bədənimin sol yanından elə uzağımdasan,
Sənin qızmar taleyinə yelim də gəlmir mənim.

Bizə səbir verən bəxtin zəri hələ şeş atmır,
Ruhunu gic yuxu basır, gəlib ruhumda yatmır.
Səni yaddan çıxarmağa gücüm çatmır ki, çatmır,
Səni sevirəm deməyə dilim də gəlmir mənim.

Məndən gəlib, mənə gedən çıxılmaz bir yolmusan,
Hələ bu cür hansı ömrü kürəyinə almısan?!
Ürəyimin şeirində vergül kimi qalmısan,
Sənə nöqtə qoymağa əlim də gəlmir mənim.

### MƏNİ QINAMA

Qurban olum gözlərinə, vallah, məni qınama,
Bilirəm ki, düzgün deyil səni oda atmağım.
Mən atamdan öyrənmişəm qəfil çıxıb getməyi,
Mən atamdan öyrənmişəm geri qayıtmamağı.

Bilirəm ki, qarğışların qurşanacaq ömrümə,
Taleyimə vulkan kimi püskürəcək göz yaşın.
Məni ömrün sonunadək gəzə-gəzə axırda,
Qarı düşmən kəsiləcək qarğışın addımbaşı.

Nağıllardan öyrənmisiz siz ilk dəfə sevgini,
Neyləyim ki, mən bədbəxtə nağıl deyən olmayıb.
Özgələrin payına o qədər xoşbəxtlik düşüb,
Saçlarıma addımlayan bir sığal da qalmayıb.

Mən də qaranlıq gecənin təkliyinə sığınıb,
Elə bilirdim xoşbəxtlər gülməlidir, gülməli
Qurban olum ürəyinə, çalış, məni qınama,
Səni öz tənhalığımdan artıq sevə bilmədim.

Sənin kövrək ürəyinə qurban olum, birdənəm,
Vallah, bu naxələfçün göz yaşların hədərdi.
Hər şey ötüb, düzələcək, heç vaxt ümidsiz olma,
Qaranlıq gecələrin də bir o yanı səhərdi.

Görürsən, çıxıb gedirəm, istəsən, gəl, yola sal,
Özün məni ən yaxşısı tənhalığa bağışla.
Mən atamdan öyrənmişəm yolda qoyub getməyi,
Dərdin qurban, bacarırsan atamı da bağışla.

### ELƏ GƏL Kİ

Elə gəl ki, taleyimə nur versin səslənişin,
Elə gəl ki, bu kor bəxti oyatmağı bacarım.
Bulud-bulud dol canıma, yağış-yağış ələn ki,
Damla-damla bu atəşi soyutmağı bacarım.

Silahımsan, sığınmışam tətiyinin köksünə,
Günahımsan, dayanmısan imanımın qəsdinə.
Sabahımsan, pərdə çəkib bugünümün üstünə,
Elə gəl ki, dünənimi unutmağı bacarım.

İndi elə yad gəlir ki, doğma evim-eşiyim,
Boş-boşuna yırğalanır yelləncəyim, beşiyim.
Sənsiz keçən sabahları sevmir məstan pişiyim,
Elə gəl ki, o pişiyi ovutmağı bacarım.

Gəl, kölgə sal sinəm üstdə, elə oxşayım səni,
Gəl, çiynimdə yükə çevril, yenə daşıyım səni.
Elə gəl ki, elə gəl ki, bir də yaşayım səni,
Elə gəl ki, bu nəm ömrü qurutmağı bacarım

Nəfəsimin düşməniyəm, gəl, mənə əcəl öyrət,
Məni qarış-qarış sevdin, qarışını gəl öyrət,
O yolu necə qayıtdın... gedişini gəl, öyrət
Gəl öyrət ki, mən də səndən qayıtmağı bacarım.

### NADÜRÜST

Gəlmisən? Xoş gəldin!
Getdin? Yaxşı yol!
Getsən də, qalsan da, kimə nolacaq?!
Burax yalanları, biraz dürüst ol,
Sən yaxşı bilirdin belə olacaq...

İncimə, susmağı səndən öyrəndim,
İncimə, qulağım eşitməz olub.
Səni səslədiyim o günlər indi,
Mənim qulağımda qırıq səs olub.

Gəlmisən, qısılıb baxırsan mənə,
Susursan, sakitcə üzr istəyirsən.
İndi qulağının pası açılıb,
İndi dodağımdan söz istəyirsən.

Sən axı bilirdin, unudulanın
Necə də amansız unutmağı var.
Bütün ümidləri yıxıb gedənin,
Nə vaxtsa ümidlə qayıtmağı var.

Utana-utana nə qayıtmısan,
Səni kim çağırdı, niyə çağırdı?!
İncimə, bu eşqə əziyyətimi
Qoysaq tərəziyə, səndən ağırdı.

Yolun açıq olsun, nə umum, küsüm,
Getsən də, qalsan da, kimə nolacaq?!
Burax yalanları, ay nadürüstüm,
Sən yaxşı bilirdin belə olacaq.

### BİZİM GÖRÜŞÜMÜZ

Bizim görüşümüz mənə imtahan,
Sənin qismət adlı bəxtindən keçib.
Bir üzü eşq adlı qaynar nəfəsdən,
Bir üzü dərd adlı şaxtamdan keçib.

Sərt olan qışlara düşər hər yazın,
Üzünə qımışmaz tale ulduzun.
Hələki qəlbimdə dincəl sən, qızım,
Hələki şahlığın taxtımdan keçir.

Dizi yaralısan, yarana qurban,
Sənə mənim qədər yanana qurban.
Uşaq ürəyin var, mən ona qurban,
Neyləyim, oyuncaq vaxtımdan keçib...

### BƏLKƏ TƏZƏDƏN BAŞLAYAQ

Allah, canım tüstülüdü,
Yandırırsan, külünü ver.
Ver, atalı günlərimin,
Ayını ver, ilini ver.

Yaman - yaxşıdan yarıyıb,
Dərdlə kim qoşa qarıyıb?!
Damağımda söz quruyub,
Danışmağa dilimi ver.

Oyat nağılgözlü yarı,
Hərdən xatırlasın barı.
İçindəki duyğuları
Ona qalsın, könlümü ver.

Təngnəfəsəm,
yavaşlayaq,
Gedək şeytanı daşlayaq.
Bəlkə təzədən başlayaq? –
Şansım varsa, əlini ver...

### GECƏNİN ŞEİRİ

Gecə nəsə pıçıldayır, ürəyimdən,
barmaq uclarıma qədər hiss edirəm səsini
nəsə deyir, eşidirəm, duyuram...
cavab yaza bilmirəm

Buludların yerdəyişməsindən,
elə bil deyir ki,
Eyni əzabla ruhunu göynətmə,
biraz yerdəyişmə elə

Ay da yarımçıqdı, ürəyim kimi...

Gecə deyir ki,
yarısı ömrün digər günlərində çıxacaq,
səbr etməyi bacar

Dişlərimi sıxıram ki, gözlərim ağlamasın,
Gecə deyir ki,
ağlama, ağlama...
biraz buludlar kimi yağış saxlamağı bacar

Bilirəm, e.., hiss elədin ki, bu dəqiqə
ulduzlara həsəd aparıram
hiss elədin ki, –
sarı işıq diraklərinə söykənib ağlamaq istəyirəm
ona görə dilləndin
sən vəfalısan!
Gecə qardaş, sənə şeirlə cavab yazsam olarmı?

**2022.**